# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№298/3** **23 fevral 2018-ci il**

## "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2018-ci il üçün plan-qrafik"in təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin (V.Kərimov) və Auditin keyfiyyətinə nəzarət şöbəsinin (Y.Namazəliyev) təqdim etdikləri Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2018-ci il üçün plan-qrafik"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsi üzrə 2018-ci il üçün plan-qrafik" təsdiq edilsin (əlavə olunur).
2. Keyfiyyətə nəzarət üzrə komitənin sədri Vəli Kərimova və Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Yaşar Namazəliyevə tapşırılsın ki, 2018-ci il üçün nəzərdə tutulmuş Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinə kənar nəzarətin həyata keçirilməsinə dair yoxlamaların vaxtında və keyfiyyətlə yerinə yetirilməsini və Auditin keyfiyyətinə nəzarət sahəsində şəffaflığın təmin edilməsi məqsədilə aparılan yoxlamaların rüblük icmalının hazırlanmasını və ictimaiyyətə açıqlanmasını təmin etsinlər.
3. Bu qərarın mətninin və plan-qrafikin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**